

# Səməd Vurğun irsinin kitabxanalarda təbliği istiqamətləri

Metodik vəsait

Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

AZƏRBAYCAN
MİLLİ
KİTABXANASI

# Səməd Vurğun irsinin kitabxanalarda təbliği istiqamətləri

**Metodik vəsait**

*Respublikanın kütləvi və ixtisaslaşdırılmış kitabxanaları, Mərkəzləşdirilmiş Kitabxana Sistemləri üçün metodik tövsiyələr*

**BAKI – 2026**

**Tərtibçi**: **Aygün Məmmədova**

**İxtisas redaktoru**: **Kərim Tahirov,**
*Professor, Əməkdar mədəniyyət işçisi*

**Redaktor: Aygün Koçak**

**Səməd Vurğun irsinin kitabxanalarda təbliği istiqamətləri**: **metodik vəsait:** [Elektron resurs] /Tərt. A.Məmmədova; ixtisas red. K.Tahirov; red. A.Koçak.- Bakı, 2026.- 45 s.

**© Azərbaycan Milli Kitabxanası, 2026**

## Xalq şairi Səməd Vurğunun 120 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2026-cı ildə iyirminci əsr Azərbaycan ədəbiyyatının qüdrətli simalarından biri, Xalq şairi, tanınmış dramaturq və ictimai xadim, SSRİ Dövlət mükafatları laureatı, Azərbaycan Respublikası Elmlər Akademiyasının həqiqi üzvü Səməd Vurğunun (Səməd Yusif oğlu Vəkilovun) 120 illiyi tamam olur.

Səməd Vurğun Azərbaycanın ədəbi fikir salnaməsində yeni parlaq mərhələ başladan görkəmli sənətkardır. Çoxşaxəli fəaliyyətinin qayəsində azərbaycançılıq amalı dayanan şair nəğməkarı olduğu Odlar diyarını alovlu məhəbbətlə tərənnüm etmişdir. Onun dillər əzbərinə çevrilmiş “Azərbaycan” şeiri hər bir azərbaycanlının ürəyindəki Vətən sevgisinin poetik ifadəsidir. Böyük söz ustası ana dilinin saflığı uğrunda dönmədən mübarizə aparmış, xalq yaradıcılığının tükənməz xəzinəsindən bəhrələnməklə bu dilin bütün məna gözəlliklərini özündə əks etdirən, dərin bəşəri-ictimai məzmuna malik qiymətli əsərlər ərsəyə gətirmişdir. Səməd Vurğunun milli poeziyanı yüksəklərə qaldıran romantik və fəlsəfi məzmunlu bənzərsiz lirikası Azərbaycan ədəbiyyatının qızıl fonduna daxildir. Keçmişə ehtiram və gələcəyə inam aşılayan Vurğun dramaturgiyası Azərbaycanın teatr sənəti tarixində xüsusi səhifə təşkil edir. Səməd Vurğunun novator keyfiyyətlərlə zəngin bədii irsi bir məktəb kimi müasir Azərbaycan poeziyasına güclü təsir göstərmişdir və bu gün də gənc nəslin milli-mənəvi dəyərlərə

sədaqət ruhunda yetişməsində əhəmiyyətli rol oynayır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan ədəbiyyatının inkişafında müstəsna xidmətləri olan görkəmli şair Səməd Vurğunun 120 illiyinin keçirilməsini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası və aidiyyəti qurumlarla birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təklifləri nəzərə alınmaqla, Xalq şairi Səməd Vurğunun 120 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 23 fevral 2026-cı il*

## Tərtibçidən

2021-cı il mart ayının 21-də Azərbaycanın ilk Xalq şairi, görkəmli dramaturq, ictimai xadim, akademik, Azərbaycan SSR Əməkdar incəsənət xadimi, iki dəfə Stalin mükafatı və iki dəfə Lenin Ordeni laureatı Səməd Vurğunun (Səməd Yusif oğlu Vəkilov) anadan olmasının 120 illiyi tamam olur. Bu yubiley görkəmli şairin zəngin yaradıcılıq irsinə nəzər salmaq, onun ideya-bədii dünyasını istifadəçilərə daha geniş şəkildə təqdim etmək baxımından xüsusi əhəmiyyət daşıyır.

Təqdim olunan metodik vəsaitdə Səməd Vurğunun həyat və fəaliyyəti haqqında qısa məlumat, görkəmli şairin irsinin kitabxanalarda geniş təbliği məqsədilə müxtəlif kütləvi tədbirlərin həyata keçirilməsinə dair metodik tövsiyələr verilmişdir. Sonda isə görkəmli şəxsiyyətlərin Səməd Vurğun haqqında seçilmiş fikirləri, həyat və fəaliyyətinin əsas tarixləri və ədəbiyyat siyahısı öz əksini tapmışdır.

Nəşrlə bağlı rəy və təkliflərini Milli Kitabxanaya ünvanlayan mütəxəssis və istifadəçilərə əvvəlcədən öz minnətdarlığımızı bildiririk.

Ünvan: AZ-1000, Bakı şəh., Xaqani küç. 57

E-mail: contact@anl.az

URL: www.millikitabxana.az

## Səməd Vurğunun həyat və faəliyyətinin qısa tarixçəsi

Səməd Yusif oğlu Vəkilov 1906-cı il mart ayının 21-də Qazax rayonunun Yuxarı Salahlı kəndində anadan olmuşdur. Şair uşaqlıq illərini doğma kəndində keçirmiş, ilk təhsilini kənd məktəbində almışdır. 1918-ci ildə görkəmli ədəbiyyatşünas və maarifçi Firudin bəy Köçərli Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsini Qazağa köçürərək Qazax Müəllimlər Seminariyasını təşkil edir. Bu məktəbə qəbul olunan kənd uşaqları arasında Səməd və Mehdixan Vəkilov qardaşları da var idilər.

Təhsilə başladığı ilk günlərdən ondakı fitri istedad özünü göstərməyə başlamışdır. Bu illərdə o, Vaqif, Vidadi, Zakir və Sabir yaradıcılığı ilə yanaşı, A.S.Puşkinin, Y.M.Lermontovun və türk yazıçılarından Tofiq Fikrətin, Namiq Kamalın, Məhməd Əminin əsərləri ilə də tanış olur. Səsi olduğundan gözəl oxuyur, məharətlə şeir deyir, həvəskar tamaşalarda çıxış edirdi.

1922-ci ildə şairin atası Yusif ağa, bir il sonra isə nənəsi Aişə xanım vəfat edir. Bundan sonra Səmədə və qardaşı Mehdixana onların bibisi qızı Xanqızı Vəkilova qayğı göstərir. Seminariyada o, ilk şeirlərini qələmə alır. Yazdığı şeirlər seminariyanın divar qazetində çıxırdı. Şairin ilk çap əsəri olan “Cavanlara xitab” şeiri 1925-ci ildə Tiflisdə çıxan “Yeni fikir” qazetində dərc olunmuşdur. Bu şeiri o, seminariyanı qurtarması münasibətilə yazmışdır. Seminariyanı bitirdikdən sonra Səməd Vəkilov Azərbaycanın bir sıra kənd və rayonlarında, o cümlədən Qazaxda, Qubada, Gəncədə Azərbaycan dili və ədəbiyyatını tədris etməyə başlayır. Gənc şair öz xalqını, vətənini, doğma torpağının əsrarəngiz təbiətini sevdiyi üçün “Vurğun” təxəllüsünü götürür.

1929-cu ildə S.Vurğun İkinci Moskva Universitetinin ədəbiyyat fəkültəsinə daxil olur. Moskvadakı təhsil illərində o, fəal yaradıcılıqla da məşğul olur. Həmin illər yazdığı siyasi

məzmunlu və lirik şeirlər onun 1930-cu ildə çap olunmuş "Şairin andı" adlı ilk kitabında toplanmışdır.

1930-1940-cı illər - Vurğun istedadının çiçəklənməsi və yüksəlişi dövrü hesab olunur. 1934-cü ildə şairin "Könül dəftəri" və 1935-ci ildə "Şeirlər" adlı kitabları nəşr olunmuşdur. Bu dövrdə şair, poeziyamızın dilini bir çox əcnəbi sözlərdən təmizləyərək, ədəbiyyatımızı, dramaturgiyamızı yeni əsərlər hesabına zənginləşdirmişdir. 1934-cü ildə yazılmış **"Azərbaycan"** şeiri Azərbaycan ədəbiyyatının incilərindəndir. Bu şeirdə doğma Azərbaycanın qədim tarixi, təbii gözəlliyi, nemətləri, xalqımızın xeyirxahlığı, açıqürəkliyi və qonaqpərvərliyi öz əksini tapmışdır.

S.Vurğun 1936-1937-ci illərdə yeni əsərlər yazmaqla yanaşı, tərcüməçiliklə də məşğul olmuşdur. Şair ilk dəfə A.S.Puşkinin mənzum romanını Azərbaycan dilinə tərcümə etmişdir. Mənzum romanın tərcüməsinə görə şairə Puşkin komitəsinin "A.S.Puşkin medalı" təqdim olunmuşdur. Bu illər şair Ş.Rustavelinin "Pələng dərisi geymiş pəhvəlan" əsərinin bir hissəsisini böyük ustalıqla tərcümə etmiş, bunun üçün Gürcüstan SSR MİK-in fəxri fərmanı ilə təltif edilmişdir. Eləcə də şair T.Şevçenkonun, İ.Çavçavadzenin, Cambulun bir çox şeirlərini dilimizə tərcümə etmişdir.

1937-ci ilin ikinci yarısında S.Vurğun özünün ölməz dram əsərini - **"Vaqif"**i yazır. **"Vaqif"** dramını 3-4 həftə ərzində, heyrətləndirici bir sürətlə tamamlayan şair əsərdə M.P.Vaqifin faciəli həyatını, şair böyüklüyünü, insanlıq kamilliyini ustalıqla, məhəbbətlə əks etmişdir. **"Vaqif"** dramına görə S.Vurğun 1941-ci ildə "Stalin mükafatı" adına layiq görülmüşdür.

1937-1938-ci illərin qanlı represiyaları S.Vurğundan da yan keçməmişdir. Onun yüksək sənət qüdrəti, nüfuzu və ona olan xalq məhəbbətinə qısqanan adamlar şairi millətçilik böhtanları ilə

ləkələmək və cərgədən çıxartmağa can atırdılar. Lakin S.Vurğun mənəvi iztirab keçirsə də, əyilməz iradəsi, cürəti, məntiqi və təsirli danışıqları ilə əleyhdarlarının planlarını pozmuşdur.

Nizami Gəncəvinin 800 illik yubileyinə hazırlıq işində fəal iştirak edən Səməd Vurğun 1939-cu ildən başlayaraq Nizami haqqında məqalələr yazmış, elmi məruzələrlə çıxış etmiş, onun "Leyli və Məcnun" poemasını məharətlə dilimizə çevirmişdir. 1939-cu ildə şair inqilabçı Xanlar Səfərəliyevin həyatından bəhs edən ikinci mənzum dram əsəri olan **"Xanlar"**ı yazmışdır. Həmin il onun **"Azad ilham"** adlı kitabı nəşr edilmişdir. 1941-ci ildə S.Vurğun Nizaminin "Xosrov və Şirin" poemasının motivləri əsasında **"Fərhad və Şirin"** mənzum dramını yazmışdır. Müharibə dövründə yazılmış bu dramda böyük vətənpərvərlik duyğularının tərənnümü xüsusi məna kəsb edirdi. S.Vurğun 1942-ci ildə bu əsərə görə ikinci dəfə "Stalin mükafatı" laureatı adına layiq görülmüşdür.

Böyük Vətən müharibəsi illərində sənətkar 60-dan artıq şeir, bir neçə poema, o cümlədən **"Bakının dastanı"** poemasını yazmışdır. Bu illərdə Vurğun sənətinin şöhrət miqyası xeyli genişlənmişdir. Onun yazdığı **"Ukrayna partizanlarına"** şeirinin mətnləri təyyarədən Ukrayna meşələrinə səpələnərək partizanlara çatdırılmışdır. 1943-cü ildə Amerikada keçirilən müharibə əleyhinə yazılmış ən dəyərli əsərlər müsabiqəsində şairin yazdığı **"Ananın öyüdü"** şeiri çox yüksək qiymətləndirilmiş və bütün dünya ədəbiyyatında bu mövzuda yazılan ən qiymətli 20 əsərdən biri kimi Nyu-Yorkda çap etdirilərək hərbçilər arasında yayılmışdır. Müharibənin ağır şəraitində şair Krım, Mozdok, Qroznı, Novorossiysk cəbhələrində olmuşdur. 1943-cü ildə onun təşəbbüsü ilə hərbi tədbirlər, cəbhəçilər və onların doğmaları ilə görüşlər keçirmək üçün Füzuli adına "Ziyalılar evi" yaranmışdır.

1945-ci ildə yazdığı fəlsəfi dram əsəri olan **“İnsan”** pyesində şair gələcəyi romantik vüsətlə əks etdirməyə çalışmış, müharibənin odlu-alovlu günləri içərisində insan zəkasının qüdrətini göstərmişdir. Şairin **“İnsan”** əsərində yaratdığı **“Qardaşlıq şəhəri”**ndə dünyanın eyni arzu və ideallarla yaşayan insanları toplaşmışdır.

S.Vurğun təkcə məşhur şair deyil, eyni zamanda böyük alim, əvəzsiz təşkilatçı və nəzəriyyəçi idi. 1945-ci ildə o, Azərbaycan SSR Elmlər Akademiyasının (indiki Azərbaycan Milli Elmlər Akademiyası) akademiki seçilmişdir. Elə həmin il Bakıda İranla Mədəni Əlaqələr Cəmiyyəti yaranmışdır. Bu cəmiyyətin başçısı S.Vurğun təyin edilmişdir.

Müharibədən sonrakı illərdə S.Vurğun görkəmli ictimai xadim kimi dünyada sülhün bərqərar olması işində fəal iştirak etmişdir. SSRİ Ali Sovetinin deputatı kimi şair 1947-ci ildə görkəmli ədəbiyyat və mədəniyyət xadimləri ilə birgə Londona səfər etmiş, yolüstü Berlində dayanmışdır. Burada şairi onun **“Vaqif**” dramını səhnələşdirən yaradıcı kollektivlə görüş gözləyirdi. Teatrın yaradıcı kollektivinə müəlliflə görüşmək, onun fikrini öyrənmək çox maraqlı olmuş, pyesin alman rejissoru müəllifə Qacarın obrazında etdiyi dəyişiklərdən, onun Hitlerə məxsus cizgilər verməsindən məlumat vermişdir. 1948-ci ildə S.Vurğun Polşanın Vrotslav şəhərində keçirilən Mədəniyyət Xadimlərinin Ümumdünya Konqresinin iştirakçısı olmuş, konqresdən qayıtdıqdan sonra şair **“Zəncinin arzuları”** poemasını yazmışdır. Həmin il poema Polşada çap edilmişdir. Xarici səfərlərlə bağlı yazdığı şeirlərini şair məşhur **“Avropa xatirələri”** adı ilə çap etdirmişdir. 1951-ci ildə şair “Bolqar-sovet dostluğu cəmiyyəti”nin xətti ilə Bolqarıstanda olmuşdur.

S.Vurğunun müharibədən sonrakı dövr yaradıcılığı da çox məhsuldar olmuşdur. Şair bir-birinin ardınca **“Muğan”** (1948),

**“Aygün”** (1950-1951) və **“Zamanın bayraqdarı”** (1952) poemalarını qələmə almışdır.

Həyatının son illərində yazdığı şeirləri onun yaradıcılığının yeni mərhələsini təşkil edir. Bu şeirlər həyata bağlılıq, insanların dostluq və xeyirxahlıq kimi keyfiyyətlərini əks etdirməklə yanaşı, şairin vətən və xalq qarşısındakı müqəddəs borcunun ifadəsi idi. S.Vurğunun bu illərdə yaradıcılıq uğurlarına baxmayaraq o, yenə 1953-cü illərdə haqsız hücumlara, təziqlərə məruz qalmışdır. **“Aygün”** poeması tənqid edilmiş, şairin Moskvada çap edilmiş **“Şairin hüquqları”** məqaləsi ona qarşı hücumları daha da kəskinləşdirmişdir. Şair yenə də millətçilikdə təqsirləndirilmişdir. Kitablarının kitabxanalardan, dram əsərlərinin səhnədən götürülməsinə göstəriş verilmiş, şairə şəhərdən çıxmaq qadağan edilmişdir.

1954-1956-cı illərdə S.Vurğun Azərbaycan SSR EA-nın vitse-prezidenti vəzifəsinə çalışmışdır. Həddən ziyadə xeyirxah bir insan olan şair bu vəzifədə çalışdığı zamanda, ayrı-ayrı insanlara öz kömək əlini uzatmışdır. Tanınmış akademiklərdən S.Aşurbəyovanın, P.Əzizbəyovanın Elmlər Akademiyasına gəlmələri məhz S.Vurğunun adı ilə bağlıdır. Bundan əlavə, dilçi alimlərdən Türkan Əfəndiyeva, Vaqif Aslanov, filosof Camal Mustafayev, tarixçi Mahal Məmmdov və onlarla belə insanların elmə gəlməsi S.Vurğunun təkidi və köməkliyi nəticəsində olmuşdur.

O zamanki SSRİ məkanında Səməd Vurğunun böyük nüfuzu var idi. O, müxtəlif illərdə SSRİ-nin ən yüksək orden və medalları ilə təltif edilmiş, sovet xalqlarının sevimli şairi olmuşdur.

1955-ci ilin oktyabr ayında S.Vurğun SSRİ nümayəndə heyəti tərkibində Vyetnama gedərkən yolda xəstələnir və səfərini yarımçıq saxlamalı olur. Çində onu Pekin xəstəxanasında müayinə edirlər. Bir neçə həftədən sonra şair vətənə qayıdır.

1956-cı ilin mart ayında Səməd Vurğunun 50 yaşı tamam olur. Azərbaycanın rəhbərliyi tərəfindən "Azərbaycanın xalq şairi" adı təsis edilir və ilk dəfə bu ada Səməd Vurğun layiq görülür. May ayının 12-də Opera və balet teatrında SSRİ-nin ədəbi ictimaiyyətinin və xarici qonaqların iştirakı ilə şairin təntənəli yubiley gecəsi keçirilir. S.Vurğun yubiley təntənəsindən iki həftə sonra 1956-cı il may ayının 27-də vəfat etmişdir. Azərbaycan Dövlət Filarmoniyasında üç gün şairlə vida mərasimi keçirilmişdir. May ayının 30-da Səməd Vurğun Bakıda Fəxri xiyabanda dəfn edilmişdir.

Şairin adı ölümündən sonra müxtəlif yerlərdə əbədiləşdirilmişdir. Bakıda şairin möhtəşəm heykəli ucaldılmış, meydan və mərkəzi küçələrdən birinə şairin adı verilmişdir. Azərbaycan Dövlət Akademik Rus Dram Teatrı, neft tankeri də Səməd Vurğunun adını daşıyır. Mossovetin qərarı ilə Moskva küçələrindən biri, Kiyev şəhərində kitabxana, Düşənbə şəhərində 57 saylı məktəb və Bolqarıstanda texnikum şairin adını daşıyır.

Respublikamızın bütün rayonlarında Səməd Vurğun adına onlarla məktəb, mədəniyyət evi, küçə, park vardır. Şəhər və kəndlərdə şairin heykəlləri, büstləri qoyulmuş, müxtəlif yerlərdə şairə həsr olunmuş güşələr və kiçik muzeylər yaradılmışdır. Bunların içərisində Qax şəhərində müəllim Məmməd Aşurovun öz həyatində inşa etdiyi evdə yaratdığı **"Səməd Vurğun muzeyi"** xüsusi yer tutur.

1975-ci ildə Bakıda "Sovet ədəbiyyatı günləri"ndə ölkənin ədəbi ictimaiyyətinin iştirakı ilə **"Səməd Vurğunun Ev Muzeyi"nin** təntənəli açılışı olmuş, 1976-cı ildə şairin doğma kəndi Yuxarı Salahlıda Ev Muzeyinin filialı – **"Səməd Vurğunun poeziya evi"** yaradılmışdır.

1996-cı ildə ulu öndər Heydər Əliyev görkəmli şair Səməd Vurğunun anadan olmasının 90 illik yubileyinin keçirilməsi ilə

bağlı sərəncam imzalamışdır. Sərəncama əsasən şairin yubileyi təntənəli şəkildə keçirilmişdir. Yubiley mərasimində ümummilli lider Heydər Əliyev də iştirak etmişdir.

2006-cı ilin mart ayında isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev şairin 100 illiyinin tamam olması ilə bağlı sərəncam imzalamışdır. Yubiley çərçivəsində Azərbaycanın bütün guşələrində Səməd Vurğunun anadan olmasının 100 illiyi qeyd edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli, 211 nömrəli Qərarı ilə Səməd Vurğun Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilmişdir.

Prezident İlham Əliyev 23 fevral 2026-ci il tarixində Səməd Vurğunun **120 illik** yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalamışdır. Sərəncama əsasən, Xalq şairi, tanınmış dramaturq və ictimai xadim Səməd Vurğunun yubileyinə dair tədbirlər planı hazırlanıb həyata keçirilir.

## Səməd Vurğun irsinin kitabxanalarda təbliği

Görkəmli Azərbaycan şairi Səməd Vurğunun zəngin ədəbi irsinin geniş oxucu auditoriyasına çatdırılması, onun yaradıcılığının müasir dövrdə təbliği və gələcək nəsillərə ötürülməsi kitabxanaların qarşısında duran mühüm vəzifələrdəndir. Şairin anadan olmasının 120 illiyi münasibətilə bu istiqamətdə sistemli və məqsədyönlü tədbirlərin həyata keçirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Səməd Vurğunun 120 illik yubileyi ilə bağlı əvvəlcədən hazırlanmış tədbirlər planı əsasında il ərzində kitabxanalarda elektron məlumat bazalarının formalaşdırılması, ənənəvi və elektron sərgilərin təşkili, yeni nəşrlərin təqdimatı, müxtəlif müsabiqə və maarifləndirici tədbirlərin keçirilməsi məqsədəuyğundur.

**Elektron məlumat bazası.** Hazırda kitabxanaların texniki vasitələrlə təchizatını və istifadəçilərin daha çox elektron resurslara olan marağını nəzərə alsaq, Azərbaycanın Xalq şairi, görkəmli dramaturq, ictimai xadim Səməd Vurğunun 120 illik yubileyi ilə bağlı elektron məlumat bazası hazırlamaq kitabxana istifadəçiləri üçün olduqca əhəmiyyətlidir.

Nümunə:

**“Səməd Vurğun – 120”**
**Elektron məlumat bazası**

**Həyat və yaradıcılığı**
**Görkəmli şəxslər Səməd Vurğun haqqında**
**Seçilmiş fikirləri**
**Əsərləri**

- Kitabları
- Tərcümələri

• Məqalələri
• Şeirləri

**Şeirlərinə musiqilər**

**Haqqında**

• Kitablar
• Məqalələr
• Dissertasiya və avtoreferatlar

**Mükafatları**

**Xatirəsinin əbədiləşdirilməsi**

**Filmoqrafiya**

**Fotoqalereya**

**Videoqalereya**

Elektron məlumat bazasını hazırlayan kitabxanaçılar buraya şair ilə əlaqədar digər bölmələr də əlavə edə bilər. Elektron məlumat bazası regionlarda yaşayan geniş istifadəçi kütləsinin görkəmli şairin yaradıcılığı ilə bağlı müxtəlif sənədlərlə yaxından tanış olmasına, bu resurslardan rahat istifadə etməsinə köməklik edəcəkdir. Bununla yanaşı, yaradılan baza kitabxanaya gələ bilməyən fiziki qüsurlu istifadəçilər üçün də böyük əhəmiyyətə malik olacaqdır.

Elektron məlumat bazasını hazırlayarkən kitabxanaçılar Milli Kitabxananın *(www.millikitabxana.az)* Səməd Vurğun haqqında tərtib etdiyi **"Azərbaycanın xalq şairi Səməd Vurğun"** adlı elektron məlumat bazasından istifadə edə bilərlər *(http://anl.az/el/emb/S.Vurgun/index.html).*

Məlumat bazası vaxtaşırı yenilənməli, yeni məlumatlar daxil edilməli və eləcə də kitabxananın təşkil etdiyi bir sıra tədbirlərdə məlumat bazasından istifadə edilməlidir.

**Elektron sərgi.** Geniş istifadəçi auditoriyasını, o cümlədən kitabxanaya gəlmək imkanı olmayan oxucuları Səməd Vurğunun

yaradıcılığı ilə tanış etmək məqsədilə elektron kitab sərgilərinin təşkili səmərəli və müasir vasitələrdəndir. Bu sərgilər kitabxananın fondunda mövcud olan ənənəvi və elektron resurslar əsasında hazırlanır.

Slaydlar formasında tərtib olunan elektron sərgidə Səməd Vurğun haqqında qısa məlumatlar, onun əsərləri, qəzet və jurnal məqalələri, izahlı mətnlər, eləcə də audiovizual materiallar təqdim oluna bilər. Sərgi materiallarına kitabların üz qabığı, biblioqrafik təsviri, annotasiyası, əgər mümkünsə kitabın onlayn versiyası və ya linki əlavə edilə bilər. Elektron sərginin hazırlanması zamanı kitabxanaların öz fondları ilə yanaşı, Milli Kitabxananın fondu və elektron kitabxanasında mövcud olan resurslardan istifadə tövsiyə olunur.

**Nümunə:** Elektron kitab sərgisi hazırlayan zaman kitablar üz qabığı ilə birlikdə əlavə olunur.

**Slayd 1: Sərginin başlığı**

**"Ölməz şair Səməd Vurğun"**

**Slayd 2: Səməd Vurğunun əsərləri:**

**Azərbaycan dilində**

➢ *Vurğun, S. Seçilmiş əsərləri: 5 clddə /Səməd Vurğun; tərt. ed. A.Salmansoy; red. A.Vurğunqızı.- I cild.- Bakı: Şərq-Qərb, 2005.- 264 s.*

*http://anl.az/el/v/vs_se5-1.pdf*

➢ *Vurğun, S. Seçilmiş əsərləri: 5 cilddə /Səməd Vurğun; tərt. ed. A.Salmansoy; red. A.Vurğunqızı.- II cild.- Bakı: Şərq-Qərb, 2005.- 248 s.*

http://www.anl.az/el/v/vs_se5-2.pdf

**Xarici dildə**

- *Vurghun, S. Vagif: (Drama in five acts and 11 scenes) /Samad Vurghun; transl. S.S.Agabekov.- Azerbaijan University Press, 2001.- 125, [2] p.*

http://web2.anl.az:81/read/page.php?bibid=vtls000222178

- *Вургун, С. Собрание сочинений: в 3 т.: пер. с азерб. /Самед Вургун; [сост. и комментарии А.Гусейнова, К.Талыбзаде; под общ. ред. Ч.Гусейнова; вступ. статья Н.Тихонова, с. 5-20; ил. Л.Ламма].- Том 3. Пьесы. Статьи. Выступления. Автобиография 1937-1956.- Москва: Худож. лит., 1980.- 303, [1]*

http://web2.anl.az:81/read/page.php?bibid=535769&pno=3

**Slayd 3: Səməd Vurğunun qəzet və jurnallarda nəşr olunan şeirləri**

**Azərbaycan dilində**

- *Vurğun, S. Bahar /Səməd Vurğun //Ədalət.- 2025.- 20 mart (№11).- S.8.*

http://www.anl.az/down/meqale/adalet/2025/mart/940352(meqale).pdf

- *Vurğun, S. Yandırılan kitablar /Səməd Vurğun //Ədəbiyyat qəzeti: xüsusi buraxılış.- 2025.- 12 dekabr, №49-50.- S.6.*

http://www.anl.az/down/meqale/edebiyyat/2025/dekabr/981268.htm

**Rus dilində**

- *Вургун, С, Рейхстаг: стихи /Самед Вургун, перевод П.Антокольски //Мир литературы.- 2019.- №04.- С.13.*

*http://www.anl.az/down/meqale/mir_ltr/2019/aprel/651195.JPG*

➢ *Вургун, С. Философия жизни стихотворение /Самед Вургун //Мир литературы.- 2019.- №03.- С.6.*

*http://www.anl.az/down/meqale/mir_ltr/2019/mart/644524.JPG*

**Slayd 4: Səməd Vurğun haqqında yazılan kitablar:**

**Azərbaycan dilində**

➢ *Abid, N. Səməd Vurğun poeziyasında aforizmlər: Səməd Vurğunun anadan olmasının 120 illiyinə ithaf olunur /Nəsib Abid.- Bakı: [İMZA], 2026.- 143, [1] s.*

➢ *Kafkasyalı, A. Səməd Vurğun. Milli Şairə Dair /Ali Kafkasyalı; türkcədən çevirən İ.Umudlu; [ön söz M.S.Kafkasyalı]; üz qabığındakı rəsm N.İsmayılov.- Bakı: Pergament, 2024.- 479 s.*

*http://web2.anl.az:81/read/page.php?bibid=vtls000887746*

**Slayd 5: Səməd Vurğun haqqında yazılan məqalələr:**

**Azərbaycan dilində**

➢ *Göyüş, R. "Səməd Vurğun ili" /Ramiz Göyüş //Ədalət.- 2026.- 9 yanvar, №1.- S.13.*

*http://www.anl.az/down/meqale/adalet/2026/yanvar/984612(meqale).pdf*

➢ *Qaragözova, E. Xalqına Vurğun Səməd... /Elnarə Qaragözova //Olaylar.- 2025.- 7-13 mart, №9.- S.15.*

*http://www.anl.az/down/meqale/olaylar/2025/mart/937960.htm*

**Rus dilində**

- *Мустафа, Ф. "Друзья" и "Враги" Самеда Вургуна /Фируз Мустафа //Мир литературы.- 2025.- №11, декабрь.- С.6.* [http://www.anl.az/down/meqale/mir_ltr/2025/dekabr/984613(meqale).pdf](http://www.anl.az/down/meqale/mir_ltr/2025/dekabr/984613(meqale).pdf)
- *Шихлы, А. Самед Вургун и Азербайджан неразделимы! /Афаг Шихлы //Мир литературы.- 2025.- февраль-март, №2.- С.2.* [http://www.anl.az/down/meqale/mir_ltr/2025/fevral/936929.htm](http://www.anl.az/down/meqale/mir_ltr/2025/fevral/936929.htm)

**Slayd 6: İzahlı mətn**

*Martın 21-i Azərbaycan ədəbiyyatının görkəmli simalarından biri, ilk Xalq şairi Səməd Vurğunun doğum günü kimi yadda qalır. Onun poeziyası milli ruhu, aydın dili və səmimi ifadə tərzi ilə seçilir. Şairin yaradıcılığı sadə görünüşü altında dərin fəlsəfi məna daşıyaraq oxucuda güclü təsir yaradır və bu xüsusiyyətlər onu xalqın sevimli sənətkarına çevirmişdir.*

*Səməd Vurğun qısa, lakin məhsuldar yaradıcılıq yolu keçmiş, qoyduğu zəngin irslə Azərbaycan poeziyasının inkişafında mühüm mərhələ yaratmışdır. Onun əsərlərində dövrün ictimai həyatı, xalqın dünyagörüşü, milli dəyərləri, məişət və ailə münasibətləri geniş şəkildə əks olunmuşdur.*

*Şairin ədəbiyyat və mədəniyyət sahəsindəki xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. O, müxtəlif orden və medallarla təltif edilmiş, 1956-cı ildə təsis olunan "Azərbaycanın Xalq şairi" fəxri adına ilk layiq görülən şair olmuşdur.*

**Slayd 7: Səməd Vurğunun seçilmiş fikirləri**

*"Cəsarət yüksək insan ləyaqətidir, bu olmasaydı, "qələbə" sözü, "qəhrəman" sözü, "məhəbbət" sözü də olmazdı".*

***

*"Biz elə monumental əsərlər yaratmalıyıq ki, onlar doğrudan da ölməz əsərlər olsunlar, gələcəyin adamları, gələcək nəsillər bu əsərləri oxuyarkən ölkəmizin indi necə yaşayıb mübarizə etdiyini görsünlər, bu əsərlər vasitəsilə bizim dövrümüzü və bizim adamlarımızı öyrənə bilsinlər..."*

***

*"Sənətkarın nəfəsi xalq nəfəsi olduğu zaman həyat və tarix onun zəhmətini çiçəkləndirir və təqdir edir. Var olsun məhəbbət və poeziya"...*

**Slayd 8:** Sərgini hazırlayan kitabxananın ünvanı, əlaqə telefonları, saytı və e-mail ünvanı.

**Viktorinalar.** Səməd Vurğunun 120 illik yubileyi çərçivəsində kitabxanalarda, əsasən yuxarı sinif şagirdlərinin görkəmli şairin həyat və yaradıcılığı haqqında biliklərini yoxlamaq məqsədilə test formasında **viktorinaların** təşkili tövsiyə olunur. Bu cür tədbirlər gənc oxucularda klassik ədəbiyyata marağın artırılmasına və milli ədəbi irsin təbliğinə xidmət edir.

**Nümunə:**

**1.** Səməd Vurğun neçənci ildə və harada anadan olmuşdur?
A) 1908-ci ildə, Şəki şəhərində
B) 1906-cı ildə, Qazax qəzasının Yuxarı Salahlı kəndində **(doğru cavab B)**
C) 1910-cu ildə, Bakı şəhərində
D) 1904-cü ildə, Gəncə şəhərində

**2.** Səməd Vurğunun yaradıcılığında hansı mövzu aparıcı yer tutur?
A) Romantik sevgi motivləri
B) Tarixi-fantastik süjetlər
C) Vətənpərvərlik və milli ruh **(doğru cavab C)**
D) Məişət satirası

**3.** Səməd Vurğunun "Vaqif" əsəri hansı janra aiddir?
A) Roman
B) Poema
C) Dram **(doğru cavab C)**
D) Hekayə

**4.** Səməd Vurğun yaradıcılığında hansı şəxsiyyətə həsr olunmuş poema xüsusi yer tutur?
A) Nizami Gəncəvi
B) Füzuli
C) Molla Pənah Vaqif **(doğru cavab C)**
D) Mirzə Fətəli Axundzadə

**5.** Səməd Vurğun hansı fəxri ada ilk layiq görülmüşdür?
A) Azərbaycanın Əməkdar incəsənət xadimi
B) Azərbaycanın Xalq şairi **(doğru cavab B)**
C) Sosialist Əməyi Qəhrəmanı
D) Xalq yazıçısı

Viktorinanın təşkili məqsədilə kitabxana tərəfindən əvvəlcədən veb-sayt və sosial şəbəkələrdə elanlar yerləşdirilməli, iştirakçılar, münsiflər heyəti və müsabiqənin şərtləri müəyyənləşdirilməlidir. Tədbirin keçirilmə yeri və tarixi barədə iştirakçılara ətraflı məlumat verilməlidir.

Suallara düzgün cavab verən məktəblilərin Səməd Vurğunun yaradıcılığı ilə bağlı kitablarla mükafatlandırılması məqsədəuyğun hesab edilir. Viktorina ilə paralel olaraq kitab sərgisinin təşkili, sənədli filmlərin nümayişi və tövsiyə ədəbiyyat siyahılarının hazırlanması tədbirin təsir gücünü daha da artırır.

Şairin yaradıcılığı ilə bağlı kitabxanada keçiriləcək tədbirlərdən biri də onun **tədqiqatçıları ilə görüşdür.** Görüşü təşkil etmək üçün plan tərtib edilməli, daha sonra şairin tədqiqatçıları, ziyalılar, ictimai xadimlər dəvət edilməlidir. Görüşün maraqlı və keyfiyyətli təşkilində texniki vasitələrin imkanlarından, audio-video çarxlardan, slaydlardan, lent yazılarından və s. materiallardan istifadə etmək məqsədəuyğundur. Yubiley çərçivəsində *"Səməd Vurğun poetikası", "Səməd Vurğun repressiya illərində", "Vətənpərvər şair Səməd Vurğun"* və digər başlıqlar altında görüşlər keçirmək olar.

Görüşü şairin ədəbi irsini əks etdirən kitab sərgisinin açılışı ilə başlamaq olar. Görüş zamanı kitabxanaçı şarin həyat və yaradıcılığı barədə qısa məlumat verdikdən sonra qonaq qismində dəvət olunan şəxslər şair haqqında ürək sözlərini söyləyirlər. Görüşdə həmçinin, şair haqqında yeni çapdan çıxmış kitabların təqdimatını da keçirmək olar.

**Buktreyler**. Səməd Vurğunun 120 illik yubileyi ilə əlaqədar kitabxanalarda keçiriləcək tədbirlər sırasında buktreylerin hazırlanması müasir və effektiv təbliğat vasitəsi kimi tövsiyə olunur. *Buktreyler (ing. "booktrailer")* konkret bir kitab və ya müəllifin yaradıcılığı haqqında qısa, bədii və vizual videoçarxdır.

Buktreylerin əsas məqsədi vizual vasitələrdən istifadə etməklə istifadəçilərin diqqətini təqdim olunan kitablara cəlb

etmək və mütaliəyə marağı artırmaqdır. Adətən 2–3 dəqiqədən artıq olmayan bu videoçarxlar peşəkar kamera və ya smartfon vasitəsilə çəkilə bilər. İlkin mərhələdə "PowerPoint", "Camtasia Studio" və oxşar proqramlar vasitəsilə təqdimat hazırlanır, mətn və musiqi əlavə edilir, daha sonra montaj prosesi həyata keçirilir.

Hazırlanan buktreylerləri kitabxananın rəsmi veb-saytında və sosial şəbəkə hesablarında yerləşdirmək mümkündür. Bu zaman kitabın və ya mövzunun seçilməsi, janrın və süjet xəttinin müəyyənləşdirilməsi, video formatın planlaşdırılması, ssenarinin yazılması və montaj mərhələləri ardıcıllıqla yerinə yetirilməlidir.

Yubiley çərçivəsində Səməd Vurğunun həyatı və yaradıcılığına həsr olunmuş kitabların, poemaların və dramaturji əsərlərin buktreyler formatında vizuallaşdırılması oxucular üçün maraqlı və maarifləndirici tədbir kimi dəyərləndirilə bilər.

**Poster.** Səməd Vurğunun 120 illik yubileyi ilə əlaqədar kitabxanalarda keçiriləcək tədbirlər sırasında **poster** hazırlamaq effektiv və maraqlı fəaliyyət forması hesab olunur. Poster *(ing. "poster" — "afişa, elan, plakat")* — məkanın bəzədilməsi və ya reklam məqsədilə istifadə olunan bədii tərtibatlı plakatdır. Poster hazırlamaq tədbir iştirakçılarına şairin yaradıcılığını vizual və bədii formada ifadə etməyə imkan yaradır. Bu cür fəaliyyətin əsas məqsədi oxucuların yaradıcılıq bacarıqlarını inkişaf etdirmək, klassik Azərbaycan poeziyası ilə tanışlığı artırmaq və şairin ideya dünyasını vizual olaraq təqdim etməkdir.

Tədbirin təşkili zamanı əvvəlcədən S.Vurğunun şeirləri, poemaları və seçilmiş sitatlar müəyyən edilir. İştirakçılara poster hazırlamaq üçün kağız, karton, rəngli qələmlər, markerlər, yapışqan və digər zəruri materiallar təqdim olunur. İştirakçılar seçilmiş sitat və ya mövzu əsasında poster, kollaj və ya mini-illüstrasiya hazırlayırlar. Poster üzərində şairin ideya dünyası,

milli ruhu, mövzuları və obrazları yaradıcı yanaşma ilə əks etdirilir. Hazırlanan işlər kitabxananın zalında və ya foyesində sərgilənir, ən uğurlu işlər münsiflər heyəti tərəfindən qiymətləndirilir və qaliblər diplom və ya Səməd Vurğunun əsərləri ilə mükafatlandırılır. Həmçinin posterlərin fotoşəkilləri kitabxananın rəsmi veb-saytında və sosial şəbəkələrdə paylaşıla bilər. Poster hazırlamaq tədbiri oxucuların şairin yaradıcılığına marağını artırır, klassik poeziyanın vizual təqdimat vasitəsilə mənimsənilməsinə xidmət edir və gənclərin yaradıcı düşüncə və estetik zövqünün inkişafını təmin edir.

**Səsli poeziya arxivi**. Yubiley çərçivəsində kitabxanalarda keçiriləcək tədbirlər **sırasında səsli poeziya arxivinin** yaradılması effektiv və müasir fəaliyyət forması hesab olunur. Bu layihənin əsas məqsədi şairin poeziyasını müxtəlif yaş qrupları tərəfindən səsləndirmək, oxucuların ədəbi yaradıcılıq bacarıqlarını inkişaf etdirmək və kitabxana üçün səsli arxiv yaratmaqdır. Səsli poeziya arxivi həm klassik ədəbiyyatın təbliğinə xidmət edir, həm də gələcəkdə təhsil və tədqiqat məqsədləri üçün material bazası təşkil edir.

Tədbirin təşkili zamanı əvvəlcədən Səməd Vurğunun şeirləri seçilir və iştirakçılara təqdim olunur. İştirakçılar şeirləri səsləndirir və onların səsləndirməsi audio formatda yazılır. Yaradılmış audio materiallar kitabxananın rəsmi veb-saytında və sosial şəbəkələrdə yerləşdirilə bilər. Həmçinin layihə çərçivəsində audio yazıların kateqoriyalara bölünməsi, müəllif və əsər adı ilə qeyd olunması, həm tələbələr, həm də digər istifadəçilər üçün rahat axtarış və istifadəyə imkan yaradır.

Bu layihə Səməd Vurğunun yaradıcılığının müasir texnologiyalar vasitəsilə təqdim olunmasına şərait yaradır və

kitabxananın mədəni-maarifləndirici fəaliyyətinin səmərəliliyini artırır.

Ümumiyyətlə, hər hansı bir kütləvi tədbirin təşkili kitabxanaçıdan kreativlik tələb edir. Odur ki, əlamətdar və tarixi günlər, görkəmli şəxslərin yubileyləri münasibətilə keçirilən tədbirlərin daha rəngarəng və kreativ olması üçün kitabxanaçı hər zaman yeni iş üsulları və formaları axtarmalıdır.

# ƏLAVƏLƏR

***Əlavə 1***

## Görkəmli şəxsiyyətlər Səməd Vurğun haqqında

Səməd Vurğun öz yaradıcılığı, əsərləri, ictimai-siyasi fəaliyyəti ilə XX əsr Azərbaycan tarixində ən görkəmli şəxsiyyətlərdən biri olubdur. Səməd Vurğun öz xalqına, millətinə sadiq insan olubdur. O, öz millətinin oyanışına, milli dirçəlişinə xidmət edibdir. Bütün yaradıcılığı boyu o, öz xalqını azad görmək istəyib, həmişə azadlıq, müstəqillik tərəfdarı olubdur.

***

Biz bu günümüzə görə - xalqımızın mədəniyyətinin, ədəbiyyatının, elminin, təhsilinin ümumi səviyyəsinin bu mərtəbəyə qalxmasına görə Səməd Vurğuna minnətdarlığımızı bildirməliyik... Bu günki Azərbaycan əzəmətli, böyük bir binadır. Bu binaya hərə öz payını qoyubdur - kimi çox, kimi az. Amma bu insanların tam əksəriyyəti Azərbaycanı qurmağa, yaratmağa və inkişaf etdirməyə çalışmışdır. Onlardan da ən görkəmlisi böyük şairimiz Səməd Vurğundur. Biz Səməd Vurğunla fəxr edirik.

**Heydər Əliyev,**
*Azərbaycan xalqının ümummilli lideri*

Səməd Vurğunun yaradıcılığı XX əsr Azərbaycan ədəbiyyatı tarixinin ən parlaq və təkrarsız səhifələrindən birini təşkil edir. Müasir Azərbaycan dilinin və ədəbiyyatının zənginləşməsində böyük rol oynamış sənətkarın bədii irsi mədəniyyətimizin inkişafında bütövlükdə yeni mərhələ olmuşdur. Azərbaycan Elmlər Akademiyasının ilk akademiklərindən biri olan Səməd Vurğunun görkəmli ictimai-siyasi xadim kimi xidmətləri də təqdirəlayiqdir.

**İlham Əliyev,**

"Vaqif" XVIII yüzillikdə yaşamış məşhur Azərbaycan şairi Molla Pənah Vaqifin həyat və əsərlərindən ilham almaqla yazılmışdır… Azərbaycan vətənpərvərliyinə rəvac verən bu pyes çağdaş Azərbaycan səhnəsinin ən uğurlu əsəri sayılır. Səmədin dili, şairlik qüdrəti və vətənpərvərliyi necə anlaması haqqında bir fikir yaratmaq üçün onun bu mənzuməsindən bəzi yerləri birgə gözdən keçirək…

**Məhəmməd Əmin Rəsulzadə,**
*İctimai-siyasi xadim, publisist*

Səməd Vurğun yaradıcılığı qalib gələn Azərbaycan şeirinin həm ideya, həm də forma etibarilə böyüyüb yüksəlməsini, milyonların qəlbini və ruhunu ifadə edən qüvvətli, bədii bir silaha çevrilməsini əks etdirir.

**Məmməd Arif Dadaşzadə,**
*Akademik*

Mən poeziyanı musiqisiz təsəvvür edə bilmirəm. Bu mənada Səmədin şeirləri əvəzsizdir.

**Üzeyir Hacıbəyli,**
*Xalq artisti, akademik*

Bu görkəmli Xalq şairinin heç bir əsərini, heç bir misrasını, heç bir tədbirini xalq mənafeyindən ayrı düşünmək mümkün deyildir. Səmədin özü kimi əsərləri də, düşüncə və arzuları da qırılmaz tellərlə xalqa bağlıdır.

**Abdulla Şaiq,**
*Şair, ədəbiyyatşünas,*
*Əməkdar incəsənət xadimi*

İnsanlara xeyirxahlıq və işıq rəmzi olan, daim yanan və yaşamağın mənasını da onda görən quşlara Səməndər adı vermişlər. Səməd Vurğun xalq yolunda, böyük ədəbiyyat və sənət yolunda daim yanan və ətrafına şölə saçan Səməndər quşu idi.

**Qulu Xəlilov,**
*Filologiya elmləri doktoru, professor,*
*Əməkdar elm xadimi*

Səməd Vurğun ədəbiyyatımızın böyük istedadlı nümayəndəsi olmaqla bərabər nadir bir şəxsiyyət idi. Yüksək insani duyğulara, böyük ürəyə malik idi. Sözü bir, özü bütöv adam idi. İnsanların həmişə yaxşı cəhətlərini görməyə çalışırdı.

**İlyas Əfəndiyev,**
*Xalq yazıçısı*

Hər xalqın ədəbiyyatında elə yazıçılar var ki, birdən onların bir neçəsini ədəbiyyatdan götürsək, qətiyyən yeri görünməz. Lakin elə tək-tək sənətkarlar var ki, onların birinin yoxluğu ilə bir xalqın ədəbiyyatında uçurum əmələ gələ bilər. Səməd Vurğun belə sənətkar, belə şəxsiyyətdir. Onsuz bizim ədəbiyyatdan danışmaq mümkün olmazdı.

**Mehdi Hüseyn,**
*Xalq yazıçısı*

Səməd Vurğun yalnız poeziya aləmində deyil, ümumən ədəbiyyatımızın ön cəbhəsində getmiş və ölməz bədii əsərləri, məruzə və nitqləri, məqalə və çıxışları ilə ədəbiyyatımızı və ictimai

fikrimizi istiqamətləndirmişdir. Yalnız müasir mövzuda deyil, tarixi mövzuda yazdığı əsərlərində də həmişə müasir olmuş, tarixi mövzuları da zamanın tələbləri baxımında işləmiş, bunlara bugünün gözü ilə baxmağı bacarmışdır.

**Bəxtiyar Vahabzadə,**
*Xalq şairi*

Səməd Vurğun poeziyası – Azərbaycan xalqının məğrur ürək döyüntüsüdür. Xalq əbədi olduğu kimi, Vurğun poeziyası da əbədi və ölməzdir. Milli sənətə dərin hörmət onu dünya sənətinə dərin köklərlə bağladı. Səməd Vurğun milli olduğu qədər beynəlmiləl, beynəlmiləl olduğu qədər də milli sənətkardır!

**Nəbi Xəzri,**
*Xalq şairi*

Səməd Vurğun – qardaş dillərimizin böyük Xalq şairi – dillərimiz yaşadıqca əbədi yaşayacaqdır. Səməd Vurğun poeziyamızın nəhəng planetidir. Bu planetin günəşi, ulduzları sönməzdir.

**Nazim Hikmət,**
*Türk şairi, yazıçısı*

Dünyanın mədəniyyət irsinə Qərbdə Homerdən Puşkinədək, Şərqdə Füzulidən Səməd Vurğunadək neçə-neçə nəsillərin təxəyyül qüdrəti və təcrübəsi sərf olunmuşdur.

**Çingiz Aytmatov,**
*Qırğızıstanın Xalq yazıçısı*

Səməd Vurğunu tanıdığım ilk gündən, onun şəxsində azəri xalqının bütün gözəlliklərini – əməksevər, humanist, nəğməkar bir xalq olduğunu duydum.

O, təkcə qardaş Azərbaycanın yox, bütün sovet xalqlarının şairi idi. Onun müdrik ağlı, həssas, xeyirxah ürəyi vardı və buna görə də dostları Səməd Vurğuna dərin məhəbbət bəsləyirdilər.

**Petrus Brovka,**
*Belarusun Xalq şairi*

Səməd Vurğun Azərbaycan poeziyasının ağ saçlı qartalı, Azərbaycan sovet ədəbiyyatının atası və oğludur. Azərbaycan və Səməd Vurğun bir-birindən ayrılmazdır. Azərbaycan və Səməd Vurğun eyni məfhumdur, çünki Səməd xalqının ən yaxşı xüsusiyyətlərini – onun sadəliyini, cəsarətini, dərin zəkasını və istedadını təcəssüm etdirir.

**Rəsul Həmzətov,**
*Dağıstanın Xalq şairi*

Bütün ədəbiyyatların ulu ustadları var ki, yaradıcılıqları boyu çiyinlərində ağır, şərəfli bir yük aparıblar və bu, dünyanın böyük ədəbiyyatları sırasında öz xalqının, öz torpağının adı olub, ucalıb. Səməd Vurğun da belə ulu ustadlardandı.

**Mustay Kərim,**
*Başqırdıstanın Xalq şairi*

Azərbaycan – qədim odlar ölkəsi xoşbəxtdir ki, dahi Səməd Vurğunu yetirib. Səməd başdan-başa istedad idi, yalnız şeir üçün doğulmuşdu… Qardaş Azərbaycan xalqının misilsiz mənəvi keyfiyyətlərini dostum Səmədin poeziyası vasitəsilə öyrənmişəm.

**Qafur Qulam,**
*Özbəkistanın Xalq şairi*

Səmədi bir dəfə görən onun hər bir hərəkətini, baxışını ömrü boyu unutmaz. Səmməddə bir igid, bir qartal görkəmi vardır. O, mübahisədən çəkinməz, ta həqiqət aydın olana qədər mübahisə edərdi. O, dumanlı xasiyyəti, dumanlı sözləri sevməzdi.

**Berdi Kerbabayev,**
*Türkmənistanın Xalq yazıçısı*

Səməd Vurğun Azərbaycan sovet poeziyasının balı və südü, duzu və çörəyidir, öz xalqının canlı təcəssümüdür. Onun parlaq, qüdrətli istedadı önündə baş əyirəm. Səməd Vurğunun adı bizim hamımıza yaxın və əzizdir. Onun poeziyasının sönməz şəfəqi Azərbaycan və gürcü xalqlarının nəhayətsiz dostluğu yolunda əbədi şölə saçacaqdır.

**Giorgi Leonidze,**
*Gürcüstanın Xalq şairi*

Elə təkcə onun xarici görünüşünün özü bədii əsər üçün müdrik bir obraz idi. O, gözəl və əvəzsiz insan idi. Onun ölümü biz yazıçıların qəlbinə, ürəyinə dağ çəkdi…

**Mixail Şoloxov,**
*Rus yazıçısı, akademik.*

Səməd gözəl şair, mərd insan və sədaqətli dost idi. O, həqiqi xalqlar dostluğunun, şairlər arasındakı dostluğun, mərdanə dostluğun nə demək olduğunu çox gözəl bilirdi. Məhz buna görə də ölkəmizin hər yerində və onun hüdudları xaricində Səmədin çoxlu dostları var.

**Konstantin Simonov,**
*Rus yazıçısı*

Onun ülvi poeziyası xalqımızın poeziyasının ən yaxşı əsərləri kəhkəşanında parlaq ulduz kim şəfəq saçır. Müxtəlif millətlərə mənsub olan milyonlarla insan bu poeziyanı sevir. Mən çoxdan bu poeziyanın məftunuyam… Dostlar həyatımızda ən böyük səadətdir və nə yaxşı ki, dünyada Səməd Vurğun var!

**Aleksandr Fadeyev,**
*Rus yazıçısı*

"Vurğun" ləqəbi seçib əsərlərini belə imzalamaq necə də gözəl, həm də cəsur bir addımdır. Özü də Şərq poeziyası üçün ənənəvi gözəlliyin vurğunu yox, yaradıcısı olduğun yeni həyatın vurğunu…

**Georgi Strumski,**
*Bolqar yazıçısı*

Səməd Vurğunun şeirlərini oxuyarkən biz onun özünü görür, səsini eşidir, qəlbinin hərarətini duyuruq. Elə bil şəffaf güzgüdə bütün geniş, hüdudsuz səmanı əks etdirən mavi gölə baxırsan. Mənə elə gəlir ki, isti yay gecəsində eyvana çıxmışam. Hər tərəfdən növbənöv güllərin, növbənöv meyvələrin insanı məst edən ətri gəlir.

**Yan Sudrabkaln,**
*Litva şairi*

Mən Səməd Vurğunun sözlərini indi də yada salıram, xüsusən qələmim çətin işləyəndə. Budur, 1956-cı ildir… Xəzər sahilindəyəm. Bakıda küləklər oynaşır. Bahar fəslidir. Amma qəlbimiz kədərlidir. Axı, biz Səməd Vurğunun "son" yubiley məclisinin qonaqlarıyıq.

Danışmaqdan çox susuruq, həyat haqqında, əbədiyyat haqqında düşüncələrə dalırıq…

**Andris Veyan,**
*Latviya şairi*

Səməd Vurğun böyük hərflərlə yazılan əsl insan idi. O, həyatı, insanı çox yüksək qiymətləndirirdi və buna görə də hamının ürəyinə tez yol tapırdı. Bəzən sənə o qədər sadə görünürdü ki, belə bir nəhəng istedad sahibi olduğunu təsəvvürə gətirə bilmirdin… Azərbaycan xalqına eşq olsun ki, adı böyük hərflərlə yazılan bir İnsanı – mənim Səməd Vurğunumu dünyaya gətirmişdir!

**Yemilian Bukov,**
*Moldav şairi*

Səməd Vurğun ədəbiyyatda həmişə yüksək, romantik, poetik üslubu bəzi ədəbiyyatçıların qanadsız təsvirçiliyinə qarşı qoymuş və bu üslubu ehtirasla müdafiə etmişdir... O, yalnız böyük poetik istedada deyil, həm də parlaq, dərin zəkaya və böyük ürəyə malik insan idi.

**Maksim Rılski,**
*Ukrayna şairi*

*Əlavə 2*

## Səməd Vurğunun həyat və fəaliyyətinin əsas tarixləri

| | |
|---|---|
| 21 mart 1906 | Səməd Yusif oğlu Vəkilov Qazax rayonunun Yuxarı Salahlı kəndində anadan olub |
| 1913-1918 | Yuxarı Salahlı kəndində "Zemskaya şkola" adlanan beşsinifli rus-tatar məktəbində təhsil alıb |
| 1918 | Ailəsi Qazax şəhərinə köçüb |
| | Gürcüstanın Qori şəhərində yerləşən Zaqafqaziya Müəllimlər Seminariyasının Qazax şəhərinə köçürülən tatar (Azərbaycan) şöbəsinə daxil olub |
| 1920 | Lenin komsomolu sıralarına qəbul edilib |
| 1923 | Göyçə mahalının Basarkeçər rayonunun Qaraqoyunlu kəndində yaşayıb, orada müəllimlik edib |
| 1924 | Qazax Pedaqoji Texnikumunu bitirib; Qazax rayonunun II Şıxlı kənd ibtidai məktəbinə müəllim təyin edilib |
| 1925 | Qazaxın Köçəsgər kənd ibtidai məktəbində müdir işləyib |
| 1926-1928 | Quba rayonunda müəllimlik edib |
| 1928 | Gəncədə nəşrə başlayan "Qızıl Gəncə" |

| | |
|---|---|
| | jurnalında şeirlərini “Vurğun Səməd” imzası ilə çap etdirib |
| 1928-1929 | Gəncədə orta məktəbdə və partiya məktəbində müəllim işləyib |
| 1929-1931 | İkinci Moskva Dövlət Universitetinin Ədəbiyyat və dil şöbəsində təhsil alıb |
| 1930 | “Şairin andı” adlı ilk şeirlər kitabı çap olunub |
| 1930-1931 | Moskvadan Bakıya qayıdaraq, Azərbaycan Dövlət Pedaqoji İnstitutunda (indiki ADPU) buraxılış imtahanlarını verib ali təhsil haqqında diplom alıb; “Komsomol poeması”nı yazıb |
| 1931-1934 | Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun (indiki AMEA) dil və ədəbiyyat şöbəsi üzrə, sonra Azərbaycan Pedaqoji İnstitutunun ədəbiyyat ixtisası üzrə aspiranturasına daxil olub |
| 1932 | “Fanar” adlı ikinci şeirlər kitabı çap olunub |
| 1934 | Xavər xanımla ailə həyatı qurub; “Könül dəftəri” adlı üçüncü kitabı çap edilib; Azərbaycan Yazıçılarının I qurultayında Azərbaycan Yazıçılar İttifaqının (indiki Azərbaycan Yazıçılar Birliyi) məsul katibi seçilib; SSRİ Yazıçılar İttifaqının I qurultayında |

| | |
|---|---|
| | iştirak edib. Qurultayda SSRİ Yazıçılar İttifaqı İdarə Heyətinə üzv seçilib;<br>Azərbaycan ədəbiyyatının incilərindən sayılan “Azərbaycan” şeirini yazıb |
| 1935 | Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinə üzv seçilib |
| 1936 | “Lenin ordeni” ilə təltif olunub |
| 1936-1937 | A.S.Puşkinin “Yevgeni Onegin” poemasını Azərbaycan dilinə müvəffəqiyyətlə tərcümə edib və Ümumittifaq Puşkin Komitəsi tərəfindən “Puşkin medalı” ilə təltif olunub;<br>Ş.Rustavelinin “Pələng dərisi geymiş pəhləvan” poemasının bir hissəsini Azərbaycan dilinə tərcümə etdiyi üçün Gürcüstan Mərkəzi İcraiyyə Komitəsinin Fəxri Fərmanı ilə təltif edilib; |
| 1938 | “Vaqif” tarixi dramını bitirib;<br>M.Əzizbəyov adına Azərbaycan Dram Teatrında (indiki ADAMDT) “Vaqif” dramının ilk tamaşası olub;<br>I çağırış Azərbaycan SSR Ali Sovetinə deputat seçilib |
| 1939 | “Şərəf nişanı” ordeni ilə təltif edilib |
| 1940-1942 | N.Gəncəvinin “Leyli və Məcnun” poemasını Azərbaycan dilinə tərcümə edib |
| 1941 | “Vaqif” dramı Moskvada rus dilində nəşr olunub; |

| | |
|---|---|
| | “Vaqif” dramına görə SSRİ Dövlət mükafatına (Stalin mükafatı) layiq görülüb |
| 1941-1948 | Azərbaycan Sovet Yazıçıları İttifaqı İdarə Heyətinin sədri olub |
| 1942 | “Fərhad və Şirin” pyesinə görə ikinci dəfə Dövlət mükafatı (Stalin mükafatı) alıb |
| 1943 | “Azərbaycan SSR Əməkdar incəsənət xadimi” fəxri adına layiq görülüb;<br>ABŞ-da keçirilən müharibə əleyhinə yazılmış ən dəyərli əsərlər müsabiqəsində “Ananın öyüdü” şeiri yüksək qiymətləndirilib və dünya ədəbiyyatında bu mövzuda yazılan ən qiymətli 20 əsərdən biri kimi Nyu-Yorkda çap edilib;<br>Füzuli adına Ziyalılar evi şairin təşəbbüsü ilə yaradılıb;<br>Bakıda yaradılan İranla Mədəni Əlaqələr Cəmiyyətinin rəhbəri seçilib |
| 1945 | Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü - akademiki seçilib;<br>S.Rüstəmlə birlikdə Azərbaycan SSR Dövlət himninin mətnini (musiqisi Ü.Hacıbəylinindir) yazıb;<br>“İnsan” mənzun pyesi Azərbaycan Dövlət Dram Teatrında tamaşaya qoyulub |
| 1946 | “Qızıl Əmək Bayrağı” ordeni ilə təltif edilib;<br>SSRİ Ali Sovetinə (II çağırış) deputat seçilib |

| | |
|---|---|
| 1947 | SSRİ Ali Sovetinin deputatları nümayəndə heyətində Londonda olub;<br>“Vaqif” dramı Berlin teatrında səhnəyə qoyulub |
| 1948 | Polşanın Vrotslav şəhərində sülhü müdafiə edən mədəniyyət xadimlərinin Ümumdünya konqresində iştirak edib;<br>“Seçilmiş əsərləri” Moskvada rus dilində çap olunub |
| 1949 | “Əsərləri” Moskvada rus dilində çap olunub |
| 1950 | Qusar rayonundakı “Qırmızı əkinçi” kolxozunun seçiciləri tərəfindən SSRİ Ali Sovetinə (III çağırış) deputat seçilib |
| 1950-1951 | “Aygün” poemasını yazıb |
| 1951 | Bolqar-sovet Dostluğu Cəmiyyətinin xətti ilə Bolqarıstanda olub |
| 1954 | Azərbaycan SSR EA vitse-prezidenti seçilib;<br>Sovet Yazıçılarının II Ümumittifaq qurultayında Sovet poeziyası haqqında əlavə məruzə ilə çıxış edib;<br>Quba seçki dairəsindən SSRİ Ali Sovetinə (IV çağırış) deputat seçilib |
| 1954-1955 | Üç cildlik “Seçilmiş əsərləri” çap olunub |
| 1955 | SSRİ nümayəndə heyətinin tərkibində |

| | |
|---|---|
| | Vyetnamda olub |
| 1956 | Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin qərarı ilə "Xalq şairi" fəxri adı təsis edilir. İlk dəfə Səməd Vurğun bu ada layiq görülüb;<br>İkinci dəfə "Lenin ordeni" ilə təltif edilib;<br>12 mayda anadan olmasının 50 illik yubileyi geniş qeyd edilib;<br>S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya üzrə fəxri doktoru seçilib; |
| 27 may | Uzun sürən xəstəlikdən sonra Bakı şəhərində vəfat edib, Fəxri Xiyabanda dəfn olunub |
| 1960 | Nizami adına Ədəbiyyat və Dil İnstitutu tərəfindən altıcildlik "Əsərləri" çap olunub |
| 1961 | Bakıda abidəsinin açılışı olub |
| 1966 | Anadan olmasının 60 illik yubileyi geniş qeyd edilib;<br>Fəxri Xiyabanda qəbirüstü abidəsinin açılışı olub |
| 1969 | "Vaqif" dramının 800-cü tamaşası göstərilib |
| 1969-1970 | "Komsomol" poeması əsasında "Yeddi oğul istərəm" bədii filmi çəkilib |
| 1975 | Bakıda, Sovet ədəbiyyatı günlərində ölkənin ədəbi ictimaiyyətinin iştirakı ilə |

| | |
|---|---|
| | ev-muzeyinin təntənəli açılışı olub |
| 1976 | Anadan olmasının 70 illik yubileyi qeyd olunub;<br>Doğma kəndi Yuxarı Salahlıda ev-muzeyinin filialı “Səməd Vurğunun poeziya evi” yaradılıb |
| 1986 | Anadan olmasının 80 illiyinin keçirilməsi haqqında Azərbaycan KP MK qərar verib |
| 1996 | Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev Xalq şairi Səməd Vurğunun 90 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalayıb |
| 2006 | 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən şairin yubileyi Azərbaycanda və dost ölkələrdə geniş şəkildə qeyd olunub;<br>Ukrayna Respublikasının Kiyev şəhərində şairin adını daşıyan kitabxananın qarşısında heykəlinin açılışı olub |
| 2012 | Prezident İlham Əliyev Ağstafada yenidən qurulmuş Səməd Vurğun adına mədəniyyət və istirahət parkının açılışında iştirak edib |
| 2016 | Anadan olmasının 110 illik yubileyi qeyd edilib |
| 2019 | Azərbaycan Respublikası Nazirlər Kabinetinin 211 nömrəli Qərarı ilə Səməd |

| | |
|---|---|
| | Vurğun Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilib |
| 2026 | 120 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sərəncam imzalayıb |

## Ədəbiyyat

**Əsərləri: 5 cilddə** /Səməd Vurğun; tərt. ed. A.Salmansoy; red. A.Vurğunqızı.- IV cild.- Bakı: Şərq-Qərb, 2005.- 400 s.
http://anl.az/el/v/vs_se4c.pdf

**Seçilmiş əsərləri: 5 cilddə** /Səməd Vurğun; tərt. ed. A.Salmansoy; red. A.Vurğunqızı.- I cild.- Bakı: Şərq-Qərb, 2005.- 264 s.
http://anl.az/el/v/vs_se5-1.pdf

**Seçilmiş əsərləri6 5 cilddə** /Səməd Vurğun; tərt. ed. A.Salmansoy; red. A.Vurğunqızı.- II cild.- Bakı: Şərq-Qərb, 2005.- 248 s.
http://anl.az/el/v/vs_se5-2.pdf

**Seçilmiş əsərləri: 5 cilddə** /Səməd Vurğun; tərt. ed. A.Salmansoy; red. A.Vurğunqızı.- III cild.- Bakı: Şərq-Qərb, 2005.- 424 s.
http://anl.az/el/v/vs_se5-3.pdf

**Seçilmiş əsərləri: Məqalələr, məruzələr, nitqlər və oçerklər** /Səməd Vurğun; tərt. ed. S.Quliyeva, A.Salmansoy; red. A.Vurğunqızı.- V cild.- Bakı: Şərq-Qərb, 2005.- 384 s.
http://anl.az/el/v/vs_se_5c.pdf

**Vurğun, S.** Mənim arzum /Səməd Vurğun //Ədəbiyyat qəzeti.- 2020.- 25 yanvar.- S.16.
http://www.anl.az/down/meqale/edebiyyat/2020/yanvar/697914.htm

***

**İbrahimova, L.** Səməd Vurğunun əsərlərində paremioloji vahidlərin üslubi-linqvistik xüsusiyyətləri: Filologiya [üzrə] fəlsəfə d-ru e. dər. al. üçün təq. ed. dis-nın avtoreferatı: 5706.01 /Leyla İbrahimova.- Sumqayıt, 2025.- 30, [1] s.

**Nəzirli, Ş.** Vurğun keçib bu yerlərdən /Şəmistan Nəzirli; red. A.M.Əhmədova; [üz qabığı dizaynı İ.Əhmədov].- Bakı: [Zərdabi Nəşr], 2025.- 645, [3] s.

**Sadıq, İ.** Səməd Vurğunun özü və sözü: [məqalələr] /İslam Sadıq.- Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 2025.- 117, [3] s.

***

**Abdullazadə, N.** Səməd Vurğun yaradıcılığı orta məktəb ədəbiyyat dərsliklərində /N.Abdullazadə //Pedoqoji Universitetin xəbərləri: Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası.- 2025.- C.73, №1.- S.9-19.
*http://www.anl.az/down/meqale/pedaqoji_univ_xeb_hip/2025/01/01(meqale).pdf*

**Bayramov, Q**. Səməd Vurğun Məmməd Arazın lacivərd poeziya üfüqündə /Qurban Bayramov //Ədalət.- 2025.- 30 may, №20.- S.10.
*http://www.anl.az/down/meqale/adalet/2025/may/951324(meqale).pdf*

**Eminov, A.** Səməd Vurğunun bir şeiri haqqında bir neçə söz /Allahverdi Eminov //Hüriyyət.- 2024.- 23 yanvar, №3.- S.14.
*http://www.anl.az/down/meqale/hurriyyet/2024/yanvar/899364(meqale).pdf*

**Eminov, A.** Səməd Vurğunun "Həyat fəlsəfəsi" şeiri: İnsanın duyum hikməti... /Allahverdi Eminov //Hürriyyət.- 2025.- 1 iyul, №22.- S.14.
*http://www.anl.az/down/meqale/hurriyyet/2025/iyul/957168(meqale).pdf*

**Göyüş, R.** Bəxtiyar Vahabzadə yaradıcılığında Səməd Vurğun obrazı: Vahabzadə Bəxtiyar-100 /Ramiz Göyüş //Ədalət.- 2025.- 12 dekabr, №47.-S.9.
*http://www.anl.az/down/meqale/adalet/2025/dekabr/980352(meqale).pdf*

**Göyüş, R.** Musiqimizin və şeirimizin iki dahisi: Üzeyir bəy və Səməd Vurğun dostluğu xatirələrdə /Ramiz Göyüş //Olaylar.- 2025.- 19-25 sentyabr, №32.- S.19.
*http://www.anl.az/down/meqale/olaylar/2025/sentyabr/966292.htm*

**Göyüş, R.** "Səməd Vurğun ili" /Ramiz Göyüş //Ədalət.- 2026.- 9 yanvar, №1.-S.13.
*http://www.anl.az/down/meqale/adalet/2026/yanvar/984612(meqale).pdf*

**Qaragözova, E.** Xalqına Vurğun Səməd... /Elnarə Qaragözova //Olaylar.- 2025.- 7-13 mart, №9.- S.15.
*http://www.anl.az/down/meqale/olaylar/2025/mart/937960.htm*

**Mirzəyeva, L.** Xalq şairi Səməd Vurğunun Cənubi Azərbaycan şeirinə təsiri /Lətifə Mirzəyeva //Azərbaycan Milli Elmlər Akademiyası, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu /Azərbaycan ədəbiyyatşünaslığı.- 2024.- №1.- S.168-175.
*http://www.anl.az/down/meqale/amea_az_edebiyyatshunasligi/2024/01/25(meqale).pdf*

**Səmədoğlu, V.** Atam Səməd Vurğun haqqında /Vaqif Səmədoğlu //Ədəbiyyat qəzeti: xüsusi buraxılış.- 2024.- 5 iyun, №21.- S.2-3.
*http://www.anl.az/down/meqale/edebiyyat/2024/iyun/898581.htm*

**Yadigar.** "Kamal Talıbzadə və Səməd Vurğun": Yadigarlar //Azərbaycan.- 2024.- 28 fevral, №45.- S.11.
*http://www.anl.az/down/meqale/azerbaycan/2024/fevral/895902(meqale).pdf*

***

**Гасанова, Л.** В даль грядущих лет…: Музыкально-поэтический вечер, посвященный Самеду Вургуну /Лала Гасанова, провела Ф.Аббасова //Бакинский рабочий.- 2024.- 29 марта, №55.- С.8.
*http://www.anl.az/down/meqale/bakrabochiy/2024/mart/885315.htm*

**Мустафа, Ф.** "Друзья" и "Враги" Самеда Вургуна /Фируз Мустафа //Мир литературы.- 2025.- №11, декабрь.- С.6.
*http://www.anl.az/down/meqale/mir_ltr/2025/dekabr/984613(meqale).pdf*

**Самед Вургун: "Я ставлю своей творческой задачей раскрыть поэзию нашей действительности"** //Неделя.- 2025.- 30 мая, №22.- С.19.

*http://www.anl.az/down/meqale/nedelya/2025/may/951656(meqale).pdf*

**Шихлы, А.** Самед Вургун и Азербайджан неразделимы! /Афаг Шихлы //Мир литературы.- 2025.- февраль-март, №2.- С.2.

*http://www.anl.az/down/meqale/mir_ltr/2025/fevral/936929.htm*

## Mündəricat

Xalq şairi Səməd Vurğunun 120 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.......................**3**

Tərtibçidən...........................................................................**5**

Səməd Vurğunun həyat və fəaliyyətinin qısa tarixçəsi.................**6**

Səməd Vurğun irsinin kitabxanalarda təbliği...............................**13**

Əlavələr...............................................................................**25**

Ədəbiyyat.............................................................................**41**